## Şəhid ruhunun anasına pıçıldadıqları

Pəncərənə düşən kölgə -
Mənəm, ana.
Ürəyində qalan "bəlkə"
- Mənəm, ana.
Bu el, elat, bütün ölkə -
Mənəm, ana.
Mən həmişə yanındayam.
Mən yanına qayıtmışam
Ruhundayam, qanındayam,
canındayam.
Qurban olum, təmkinli ol,
vüqarlı gəz.
Düşmən səni gözü yaşlı
görə bilməz.
Qamətini elə əymə, düzəl, ana.
Qoluna girmişəm axı,
qəşəng ana, gözəl ana.
Yaxşı, yaman gözlər baxır,
Axı, oğul anasısan, qızlar baxır.
Elə danış qoy səsində
səsim gəlsin.
Bilməyən də görsün, bilsin,
Bilsin əsgər anasısan,
bir şəhidin
yenilməyən bayrağısan.
Evimizin çırağısan,
sən ruhumun mayasısan.
Ay üzünü duman alsa azaram mən,
Ulduzların arasında yüzillərlə
"ana" – deyib gəzərəm mən.
Sən deyirsən "böyük dərddi".
Mən deyirəm "ana üçün
qurban getmək
Oğullara ən böyülk bir səadətdi".
Ana, vətən, "Ana Vətən"
Bir də bu dünyaya gəlsəm,
Sizin üçün bir də şəhid olaram mən.

Fikrət Qoca